# Şeyx Sənan əsatiri və Hüseyn Cavid



*İsgəndər ATİLLA,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*dosent, Əməkdar müəllim*

*(Əvvəli ötən saylarımızda)*

Şeyx Kəbirin:
- Səni annən doğurdu Turanda,
Yaşadın bir zaman da İranda.
...Lakin ən son yerin, zəki Sənan!
Olacaq son nəfəsdə Gürcüstan...

- misraları ilə başlanan monoloqu nümunə gətirən tənqidçinin fikrincə, həmin parçada "Ərəbistan yerinə" "İstanbul deyilsə idi, tamamillə Cavidin gəzmiş olduğu yerlər olacaqdı".

Bəlkə də! Bəlkə də Şeyx Sənan ilə Hüseyn Cavidin həyatı və taleyi arasında oxşarlıq axtarmaq və tapmaq mümkündür. Nə üçün? Ona görə ki, əgər Seyx Sənan sufi Şeyx Kəbirin tələbəsi idisə, Cavid sufi Rza Tofiq və Tofiq Fikrətin tələbəsi olur. H.Zeynallı yazır:

"Molla və Rövzəxan oğlu olan, sufiyanə və xalq ruhunda şeirlər söyləyən Rza Tofiqin şagirdi olan və İstanbul kimi dindar bir darülfünun dəstipərvərdəsi olan Cavid Tiflisə gəlir və burada Şeyx Sənan dastanı ilə tanış olur. Cavidi büsbütün təzyiqi altına alan bir ruhani, dindar, sufiyanə mühit və digər müvəqqəti də olsa belə ticarət mühiti (Urmiyada ticarətlə məşğul olduğu nəzərdə tutulur - İ.A.) Cavidi gəzdirə-gəzdirə Qafqazın ən gözəl bir şəhərində Şeyx Sənan dağı qarşısında saxlayır."

Yeri gəlmişkən deyim ki, böyük öndərimiz M.Ə.Rəsulzadənin də sözügedən məsələ barəsində maraqlı müşahidələri vardır. O, "Əsrimizin Siyavuşu" əsərində yazır: "Azərbaycan gəncliyi saf və səmimi bir niyyətlə Türk öyrətmənlərinin tələbəsi oldu. Çox keçmədi ki, Namiq Kamal Məhəmməd Hadini, Əbdülhaq Hamid Hüseyn Cavidi, Məhəmməd Əmin də Əhməd Cavadı oğulluğa qəbul etdilər."

H.Zeynallının tədqiqat metoduna gəlincə, deməliyəm ki, o, İppolit Ten və b. Avropa nəzəriyyəçilərinin fikir və konsepsiyalarından faydalanmışdır. Cavid haqqında yazdığı məqalələrdə müqayisəli-tarixi və mədəni-tarixi metodlarla yanaşı, marksist-leninçi metodologiyadan da istifadə etmişdir. Mənim fikrimcə, o, "Şeyx Sənan" haqqında yazdığı məqalədə İppolit Tenin "qövmi" və "dini" nəzəriyyəsindən bəhrələnmiş, "irq" və "mühit" prinsiplərindən faydalanmışdır. Bu fikri təsdiq etmək üçün onun məqaləsində kifayət qədər dəlil-sübut tapmaq olar.

Əsərin genezesi və meydana gəlməsi məsələsinə toxunan ədəbiyyatşünas, Cavidin ruhani və dindar bir ailədə tərbiyə almasını, "Rza Tofiq kibi dinsiz bir sufi şairin əfsununa düşməsini", dini mövzuda şeirlər yazmasını, nəzərə çatdırmış, uşaq ikən mərsiyə və sinəzən dəməsinin, "İman Hüseynin nökəri olmasının", sinə vurmasının çocuq Hüseyndə dürlü-dürlü vəcdlər oyatmasını əsas gətirmişdir. Lakin Tiflisə ayaq basdıqdan sonra dinin təsiri altında olan şairdə birdən-birə axirət, cənnət, cəhənnəm, huri-qılman - bütün bunların hamısı tarmar olur. O, sanki bir Şeyx Sənana çevrilir və Şeyx Sənanın həyatını yaşayır. "Şair-filosof Cavid (ədəbiyyatşünaslığımızda bu ifadəni ilk dəfə H.Zeynallı işlətmişdir - İ.A.) Tiflisdə sanki qəflət yuxusundan oyanır. "Sənan məqamında olan Cavidə Rza Tofiq və yaxud Tofiq Fikrətlərin hər biri ona bir Şeyx Kəbir mövqeyində görünür." H.Zeynallı bununla nə demək istəyirdi? Demək istəyirdi ki, ,eyx Sənan obrazının ruhu ilə Cavidin ruhu arasında bir eyniyyət vardır. "Hər ikisində əvvəlcə dindarlıq, sonra şübhələr fırtınası və nəhayət, məhəbbət və eşq yolunda "dini-imanı satmaq" kimi bir fədakarlığa cəsarət etməkdi."

O, din, mühit və irs məsələsində Sənanla Cavidi birmənalı şəkildə eyniləşdirirdi. Onun mülahizələrilə müəyyən mənada razılaşmaq olar. Amma Şeyx Sənanın obrazı ilə Cavidin obrazını eyniləşdirmək, onların arasında bərabər işarəsi qoymaq olmaz. Mənim fikrimcə, Şeyx Sənanla Cavidin mənəvi-ruhani, ruhani-irfani dünyası arasında bir yaxınlıq, bir oxşarlıq vardır. Lakin nə qədər qəribə də olsa, Cavid özünü daha çox faciədəki Dəli Dərviş obrazına oxşatmışdır. Əsər 1920-ci illərdə tamaşaya qoyularkən, tamaşadan əvvəl rolun ifaçısı Sidqi Ruhullaya demişdir: "Unutma ki, sən səhnədə məni (yəni Dəli Dərvişi - İ.A.) oynayacaqsan."

Faciədə şübhəçilik fəlsəfəsinin ayrıca araşdırmaya möhtac olduğunu hiss edən H.Zeynallı, Caviddə şübhəçiliyin mənşəyini Rza Tofiq və Tofiq Fikrətin əsərlərində axtarır və Şeyx Kəbirin:

- Şübhədir hər həqiqətin anası,
Şübhədir əhli-hikmətin babası.
Şübhə etməkdə haqlıdır insan.

- misralarını misal çəkərək, sualı bu cür qoyur: əgər şübhə nəticəsində insanın iman və etiqadı əlindən alınarsa, o, nə etməlidir? Təbiidir ki, boşluğu doldurmaq üçün ona əvəz verilməlidir. Əvəz isə bilik və kainatı olduğu kimi tanımaqdan ibarət ola bilər. Şübhə içində çabalayan Şeyx Sənan öz bilik və bacarığı sayəsindəAllahı dərk etməyə çalışır. Meracı inkar edir, tövhidə şübhə ilə yanaşır, "Səqqüləmər hekayəsi"nə başqa məna verir. Həmin bəzi şeyxlər tərəfindən tənqid və ittiham olunur. Bu zaman köməyinə mürşidi Şeyx kəbir çatır. O:

- Kim ki, Allahı istiyor görmək,
Arasın qəlbi-tabnakində,
Arasın kəndi qəlbi-pakində.
Hər kimin qəlbi, ruhu düzgündür,
Daima hiss edər də haqqı görür...

- deyərək, Şeyx Sənanı töhmət və məzəmmətdən qurtarır.

"Şeyx Sənan"da qoyulan mühüm problemlərdən biri "din, yoxsa məhəbbət" problemidir. Məsələyə geniş aspektdə yanaşan H.Zeynallı dünyada mövcud olan dinlərin kökünə nəzər salmağı lazım bilir. Hesab edir ki, dünyada mövcud olan din və məzhəblərin kökündə hind və çin, yunan və İtaliya əsatirləri dayanır. Ümumiyyətlə, onun dinlə bağlı ədəbi-nəzəri görüşlərində bu problem məxsusi yer tutur. Dinə və kainata dialektik bir qorğu ilə baxan H.Zeynallı, öncə "Peyğəmbər", sonra "Şeyx Sənan" haqqında yazdığı məqalələrdə məsələyə konsepsual yanaşmış aydınlıq gətirməyə çalışmışdır.

- Hüseyn Cavidə bu ədəbi təsir haradan gəlir? - Ədəbiyyatşünas bu suala cavab vermək üçün Türkiyə ədəbiyyatına nəzər salır. Bu ədəbiyyatda sufilik məsələsinə ayrıca diqqət yetirir. Sual olunur: Cavid sufiliyin - təsəvvüfün nəzəriyyəsi və fəlsəfəsini harada öyrənə bilərdi? Naxçıvanda, Təbrizdə, Urmiyada, yoxsa İstanbulda?

Mənim fikrimcə, əlbəttə, İstanbulda. İstanbulda Rza Tofiq və başqa türk sufi şairlərinin əsərlərindən, ali təhsil aldığı İstanbul Darülfünununda dərs deyən müəllimlərdən öyrənə bilərdi. H.Zeynallı məqaləsində diqqəti təsadüfən İstanbul ədəbi mühitinə türk şairlərinin yaradıcılığına yönəltmir. Fikrini əsaslandırmaq üçün Rza Tofiq, Namiq Kamal və sufi müdərris Fəridin şeirlərinə müraciət edir. Və sualı belə qoyur: "Cavidin [1905-1909-cu illərdə] bulunduğu İstanbulun o zamankı idealist məktəbi nə yapırdı?" O, bu münasibətilə yazır: "Bir tərəfdə hind-məşrəb nikbin və heç bir din tanımayan, fəqət sufiyana gələndəri ilə o nəfəslər yaranmaqla bütün sufilik tərəfdarlarındakı həyəcanı canlandırmağa səbəb olan filosoflar daima şübhələr və müəmmalar içində çırpınaraq şeirlər söyləyirdilər."

Kim idi onlar? Rza Tofiq, Namiq Kamal və b. H.Zeynallı təsadüfən onların yaradıcılığına və Cavid üzərində təsirinə diqqət yetirmir. Fikrini onlardan gətirdiyi misallarla nəinki möhkəmləndirir, həmçinin əsaslandırır. Rza Tofiqdən misal gətirdiyi misralara nəzər yetirək.

Gizli bir nur idim sübhi-əzəldə.
Cilvələr göstərib əyanə gəldim.
Feyzi-eşqi izhar edən gözəldə
Kəlami-sirr idim, bəyanə gəldim.
...Yoxluq uqulə rəhzən, varlıq nədir?
Bilinməz,
Bir şübhə var ki,
rövşən bilməklə heç silinməz...
Əvvəl nə, aqibət nə?
Bilməz yetim insan!
Bir də vüqufi-nəşə,
bir dəm həyat, qüvvət...
..."Folosof" Rzayam, dinsiz anlama!

Bu kimi sufi şeir parçalarını dramaturqun pyesindəki şeir parçaları ilə müqayisə edən H.Zeynallı diqqətəlayiq fikirlər söyləyir. Və faciədə Şeyx Kəbirin "Şübhə artarsa, həm yəqin artar" misrası ilə başlanan:

- Feyləsufanə ruha malik olan
Yaşamaz ayrı hərgiz Allahdan.

- beytilə bitən monoloqun son misralarını misal çəkərək, həmin fikrin idealist filosof R.Tofiqdən gəldiyini söyləyir. "Vəhdəti-vücud" kitabını yazan, İstanbul Universitetinin xitabət kürsüsündən neoplatonizmin Şərqdəki şəklinə rəvac verən sufi Fəridin həmin universitetdə təhsil alan Cavidə təsirini qeyd edir və deyir: "Təbiidir ki, böylə bir mühit içində (İstanbul Universitetində - İ.A.) yetişən bir gənc (Hüseyn Cavid - İ.A.) öz müəllimi ilə bərabər", yuxarıda misal gətirdiyimiz beyti bərabər deməli idi. H.Zeynallıdan əvvəl və sonra Cavid yaradıcılığını türk şairlərinin yaradıcılığı ilə müqayisə edib fikir söyləyənlər az olmamışdır. Ancaq Hənəfi Zeynallı səviyyəsində ədəbiyyatşünas, demək olar ki, olmamışdır. O, bu cəhətdən cavidşünaslıqda müqayisəli tədqiqatın əsasını qoymuş, paralellər aparmış, tipoloji cəhətdən onların yaradıcılığındakı oxşar və fərqli cəhətləri üzə çıxarmışdır. Konsepsual fikirlərini əsaslandırmağa çalışmışdır. Cavid, təbiidir ki, türk şairlərindən bəhrələnmiş, təsirlənmiş, öyrənmiş, lakin ədəbi məsələlərə yaradıcılıqla yanaşmış, onların kölgəsi olmamışdır. Əksinə, onların ədəbi fikir və mülahizələrini inkişaf etdirmiş, tamamilə özünəməxsus orijinal fikirlər söyləmişdir.

O, Cavid haqqında yazdığı silsilə məqalələrində bədii yaradıcılıqda psixologizm, yaxud bədii yaradıcılıqda psixoloji məqamlar, əsər üzərində işlərkən yazıçının keçirdiyi psixoloji hallar məsələsinə də yer vermişdir. "Şeyx Sənan" pyesini yazmağa girişən dramaturqun psixoloji və mühiti hazırlığına ayrıca diqqət yetirmişdir. Bu məsələdə ədəbiyyatşünasın üzərində Avropa nəzəriyyəçilərinin təsirini aydın sezmək olur. O, Cavidin ərəbcə və farsca təhsil almasını, Təbriz, İstanbul və Tiflisdə yaşamasını dramaturqun psixoloji və mühiti hazırlığı kontekstində izah etmişdir. Dramaturqun pyes üzərində işlərkən istifadə etdiyi mənbələri müəyyənləşdirmişdir.

1. Hüseyn Cavidin Şeyx Fəridəddin Əttarın "Məcalüsül-uşşaq" əsərindəki "Zikri-həzrəti-Şeyx Sənan əleyhir rəhmə" məclisindən təsirlənməsi.

2. "Şeyx Sənan"ın Tiflisətrafı türk və gürcülərin dilində dastan olması. ("Şeyx Sənan" dastanı)

3. Üzeyir bəy Hacıbəylinin 1908-ci ildə yazdığı "Şeyx Sənan" operası.

4. M.B.Hacınskinin rusca yazdığı və nəşr etdirdiyi "Şeyx Sənan əfsanəsi" kitabı.

Üzeyir bəyin operası istisna olmaqla, dramaturq yerdə qalan qaynaqlardan istifadə etmişdir. Burada bir haşiyəyə çıxmaq lazım gəlir. Cavid "Üzeyir bəylə Tiflisdə tanış olmuşdur. Bir gün o, şairə deyir: "Mən "Şeyx Sənan" adlı bir opera yazmışam. Lakin opera zəif alınmışdır. Mən istəyirəm ki, operanın librettosunu sən yazasan."

Cavid onun təklifini qəbul etmir və deyir: "Üzeyir bəy, mən də hazırda "Şeyx Sənan" adlı bir əsər üzərində işləyirəm. Təsir altına düşməyim deyə qoy bu iş sonraya qalsın."

Belə də olur. Necə deyərlər, əldən qalan əlli il qalar. Onlar bir də bu məsələnin üzərinə 1936-cı ildə gəlirlər. Şöhrət əsnasında Üzeyir bəy Cavidə deyir: "Cavid əfəndi, mən hazırda "Koroğlu" operasının üzərində işləyirəm. Yaman vuruşmadayam. "Koroğlu"nu qurtarandan sonra sənin "Şeyx Sənan" faciənə opera yazacağam."

Cavid, - Üzeyir bəy, mən sənin qulluğunda həmişə hazıram. Nə vaxt istəsən, "Şeyx Sənan"a bir liberetto yazaram, - deyir.

Lakin bu iki sənətkarın arzusu baş tutmur. 1937-ci ildə Cavid həbs olunur.

Bayaq dedim ki, H.Zeynallı məqalə üzərində çalışarkən dramaturqla görüşüb söhbət etmişdir. Bu haqda onun özü məlumat verir. Yazır ki, Cavidlə görüşərkən o, Mehdi bəy Hacınskinin "Şeyx Sənan əfsanəsi" kitabından istifadə etdiyini etiraf etdi.

***(Davamı var)***